# Ekoloji, sosial və korporativ idarəetmə (ESG) üzrə qanunvericilikdə nəzərdə tutulan güzəşt və imtiyazlar barədə
# MƏLUMATLAR

***E komponenti (ekoloji, ətraf mühitin mühafizəsi) üzrə tətbiq olunan güzəşt və azadolmalar***

- Elektrik mühərrikli avtomobillər, istehsal ili 3 ilə qədər olan və mühərrik həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillər və enerji doldurucularının idxalı və satışı ƏDV-dən azaddır. İstehsal tarixi 3 ilə qədər olan elektrik mühərrikli avtomobillər və enerji dolduruculari əlavə olaraq gömrük rüsumundan da azad edilmişdir.
- Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 4 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən yaradılmış Balaxanı Sənaye Parkında fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən azad edilir. Eyni zamanda, istehsal məqsədilə idxal edilən texnoloji avadanlıqlar 10 il müddətinə ƏDV-dən, 7 il müddətinə isə idxal rüsumundan azaddır.
- Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri" siyahısına əsasən havanın filtrlənməsi və ya təmizlənməsi üçün avadanlıqlara gömrük güzəşti tətbiq edilir.
- Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinə əlavə edilmiş və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən 102.1.38-ci maddəyə əsasən, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq əhali qrupuna daxil olan aktiv istehlakçının bərpa olunan enerji mənbələri hesabına 150 kVt (150 kVt daxil olmaqla) güc həddinədək istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan gəlir gəlir vergisindən azad edilmişdir.
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarı ilə "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları" təsdiq edilmişdir. Qaydalar kiçik güclü bərpa olunan enerji qurğuları vasitəsilə istehsal edilmiş elektrik enerjisinin istehlakdan artıq hissəsini əvəzləşdirmək məqsədilə elektrik təchizatı şəbəkəsinə ötürməyə, istehlak istehsaldan çox olduğu təqdirdə, şəbəkədən elektrik enerjisi qəbul etməyə imkan verir.